**Hörmətli Səadət xanım,**

Sizi və Azərbaycan Universitetinin kollektivini 30 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirik.

Xoş bir hal kimi xüsusilə qeyd edirik ki, Azərbaycan Universiteti ölkəmizdə ilk qeyri-dövlət ali məktəblərdən biri kimi, öz inkişaf dinamikasını həmişə yüksələn xətlə davam etdirməkdədir.

Biz də Bakı Dövlət Universiteti nəzdində Beynəlxalq Konfutsi İnstitutu olaraq, Azərbaycan Universitetində yaratdığımız filialın işindən razılığımızı bildiririk. COVİD-19 pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, Konfutsi İnstitutunun müəllimləri Çin Xalq Respublikasının Anhui Universitetindən Çin dili dərslərini online formatda tədris etməkdədirlər.

Hörmətli Səadət xanım,

Kollektivinizə yüksək ixtisaslı, müasir tələblərə cavab verən gənc kadrların hazırlanmasında yeni uğular arzulayırıq.

**Hörmətlə,**

**BDU nəzdində Beynəlxalq Konfutsi İnstitutunun kollektivi**

**28.04.2021-ci il**